

**(Şəhid general Polad Həşimovun şəkli önündə)**

Televizordan bir qəlpə qanad çalır
dua səsi gələn tərəfə,
Tanrı qaçır o qanadın üstünə.
Axı,
bir qadının körpəsinin süd dişindən
bir kişi üzü yıxılır
bir Vətən adının üstünə
və
hamı tanıyır bir-birini bu şəhərdə...

...Bu üzdə nə yoxdu ki?
Bir az ana səsi,
bir az yolunu azmış balıqçı toru,
bir az da körpə yürüyü...
Bu üzün əlindəki işıqda
hamı bir-birinin qucağını tapır,
hamı bir-birinə yüyürür.

...yüyürür güllə düşmənə,
yüyürür şəhid evinə.
Bu üzün ayağı dəyən
bircə torpaqdı ağlayan,
bircə torpaqdı sevinən...

Bayraqlarda batan qayıqlara
heç vaxt üzməyi xatırlatmadı Tanrı...
Çünki hələ də
adamların qolları var,
saçların üzü azadlığa sarı ağarmaq adəti...
Hələ də
uşaqların fəsillərə boyu çatmır.

...Nə yoxdu bu üzdə, İlahi?!
Dən də var,
torpaq da,
su da,
günəş də...
Baxdım yağışın altından keçən doğum tarixinə;
Yaranıb güllə səsindən,
yaranıb lap əvvəl günəşdən...

Gördüm ki, qatar dayanıb
bütün yaşıl yarpaqları gözləyir,
qaçdım pəncərəyə sarı...
Gördüm, hamı öz yuvasına
götürüb bu üzü aparır.

**Emil Rasimoğlu**

**Səhifəni hazırladı:**
**Tural Turan**